Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 16 ” dekabr tarixli
393 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 13.4-cü maddəsinə əsasən hazırlanmışdır və Xüsusi İcra Məmurlarının Reyestrinə (bundan sonra – Reyestr) daxil edilən məlumatların aparılması qaydasını müəyyən edir.

1.2. Bu Qaydaların məqsədi xüsusi icra məmurlarının siyahısının müəyyən edilməsinin və onlar barədə məlumatların əldə olunmasının təmin edilməsidir.

1.3. Fərdi məlumatların Reyestrdə toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## 2. Reyestrin aparılması qaydası

2.1. Reyestr Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra – Ədliyyə Nazirliyi) tərəfindən formalaşdırılan, aparılan, idarə olunan məlumat bazasıdır.

2.2. Reyestrdə xüsusi icra məmuru barədə aşağıdakı məlumatlar əks etdirilir:

2.2.1. xüsusi icra məmurunun soyadı, adı, atasının adı;

2.2.2. xüsusi icra məmurunun doğum tarixi (gün, ay, il), fotoşəkli;

2.2.3. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

2.2.4. bank hesab nömrələri;

2.2.5. ofisinin ünvanı;

2.2.6. əlaqə üçün məlumatlar (telefon nömrəsi, elektron poçt ünvanı);

2.2.7. şəhadətnamənin və xidməti vəsiqənin verildiyi tarix və nömrəsi;

2.2.8. peşə məsuliyyətinin sığorta müqaviləsinin rekvizitləri, müddəti və sığortaçı barədə məlumatlar;

2.2.9. fəaliyyəti dayandırıldığı hallarda, bu barədə məlumat (fəaliyyətin nə vaxt və kim tərəfindən dayandırılması);

2.2.10. şəhadətnamənin ləğv edildiyi hallarda, bu barədə məlumat (şəhadətnamənin ləğv edildiyi tarix və əsası);

2.2.11. intizam məsuliyyətinə cəlb edildiyi hallarda, bu barədə məlumat (intizam tənbehinin növü, nə vaxt və kim tərəfindən verilməsi);

2.2.12. köməkçisinin (olduğu halda) soyadı, adı, atasının adı;

2.2.13. xüsusi icra məmurunun Reyestrə daxil edildiyi tarix və reyestr nömrəsi.

2.3. Bu Qaydaların 2.2.1-ci, 2.2.2-ci, 2.2.7-ci, 2.2.9–2.2.11-ci və 2.2.13-cü yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar Reyestrə bilavasitə Ədliyyə Nazirliyi tərəfindən daxil edilir.

2.4. Bu Qaydaların 2.2.3–2.2.6-cı və 2.2.8-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar xüsusi icra məmurları tərəfindən şəhadətnamə əldə edildiyi tarixdən etibarən 3 (üç) iş günü müddətində Reyestrə daxil edilməsi məqsədilə Ədliyyə Nazirliyinə təqdim olunur.

2.5. Təqdim edilmiş məlumatlar Ədliyyə Nazirliyinə daxil olduğu gündən 1 (bir) iş günü müddətində çatışmazlıqların olub-olmaması baxımından yoxlanılır və çatışmazlıqlar aşkar edilmədikdə bu Qaydaların 2.2.1-ci, 2.2.2-ci, 2.2.7-ci və 2.2.13-cü yarımbəndlərində nəzərdə tutulmuş məlumatlarla birlikdə dərhal Reyestrə daxil edilir.

2.6. Təqdim edilmiş məlumatlarda çatışmazlıqlar aşkar edildikdə, o cümlədən məlumatların mətni üzərində hər hansı düzəliş olduqda bu barədə xüsusi icra məmuruna müraciətin daxil olduğu gündən 3 (üç) iş günü müddətində yazılı bildiriş göndərilir. Çatışmazlıqlar xüsusi icra məmuru tərəfindən bildiriş alındığı tarixdən 5 (beş) iş günü müddətində aradan qaldırılmalıdır.

2.7. Çatışmazlıqlar xüsusi icra məmuru tərəfindən bu Qaydaların 2.6-cı bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda Reyestrə daxil edilmək üçün təqdim olunmuş sənədlər müvafiq məktubla geri qaytarılır. Çatışmazlıqlar həmin müddətdə aradan qaldırıldığı halda məlumatlar bu Qaydaların 2.3-cü və 2.5-ci bəndlərinə uyğun olaraq Reyestrə daxil edilir.

2.8. Reyestr illər üzrə və Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi (rayon və ya şəhər) üzrə aparılır.

2.9. Reyestr iki bölmədən ibarətdir:

2.9.1. xüsusi icra məmurları;

2.9.2. fəaliyyətinə xitam verilmiş xüsusi icra məmurları.

2.10. Reyestrə daxil edilmiş məlumatlarda onlar barədə dəyişiklik olduqda xüsusi icra məmurları baş vermiş dəyişikliklər haqqında dəyişikliyin baş verdiyi tarixdən 3 (üç) iş günü müddətində Ədliyyə Nazirliyinə məlumat verməlidirlər.

2.11. Bu Qaydaların 2.10-cu bəndində nəzərdə tutulmuş məlumat Ədliyyə Nazirliyinə təqdim olunduğu gündən sonrakı iş günündən gec olmayaraq dəyişiklik Reyestrə daxil edilir.

2.12. Bu Qaydaların 2.2.9–2.2.11-ci yarımbəndlərində göstərilən hallar rəsmiləşdirildikdən sonra 3 (üç) iş günü müddətində bu barədə məlumat Reyestrə daxil edilir.

2.13. Reyestrə daxil edilmiş məlumatlarda texniki səhvlər aşkar edildikdə həmin səhvlər xüsusi icra məmurlarının müraciəti əsasında və ya Ədliyyə Nazirliyinin öz təşəbbüsü ilə 1 (bir) iş günü müddətində aradan qaldırılır.

2.14. Xüsusi icra məmurunun fəaliyyətinə xitam verildikdən sonra 3 (üç) iş günü müddətində xüsusi icra məmuru barədə məlumat Reyestrin müvafiq bölməsindən çıxarılaraq "Fəaliyyətinə xitam verilmiş xüsusi icra məmurları" bölməsinə daxil edilir.

## 3. Xüsusi icra məmurunun köməkçisinin məlumatlarının Reyestrə daxil edilməsi

3.1. Xüsusi icra məmurunun köməkçisinin fəaliyyətə başlaması üçün Ədliyyə Nazirliyinə ərizə ilə müraciət etməlidir. Ərizədə köməkçinin soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi barədə məlumatlar göstərilməli və Qanunun 18.1-ci maddəsində göstərilən sənədlər əlavə olunmalıdır.

3.2. Xüsusi icra məmurunun köməkçisi fəaliyyətə başlaması üçün təqdim etdiyi ərizə Ədliyyə Nazirliyi tərəfindən qəbul edildikdən sonra 10 (on) iş günü müddətində şəxsin Qanunun 7.2-ci və 7.3-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun olub-olmadığı araşdırılır və müvafiq məhdudiyyətlər olmadığı təqdirdə köməkçi barədə məlumat Reyestrə daxil edilir.

3.3. Xüsusi icra məmurunun köməkçisinin fəaliyyətinə xitam verildikdən sonra 3 (üç) iş günü müddətində xüsusi icra məmuru bu barədə məlumatı Ədliyyə Nazirliyə təqdim edir.

3.4. Xüsusi icra məmurunun köməkçisinin fəaliyyətinə xitam verilməsi barədə məlumat Ədliyyə Nazirliyinə təqdim olunduğu gündən sonrakı iş günündən gec olmayaraq köməkçinin adı Reyestrin müvafiq bölməsindən çıxarılır.

## 4. Reyestrdən məlumatların əldə edilməsi

4.1. Fəaliyyətinə xitam verilmiş xüsusi icra məmurları barədə məlumatlar istisna olmaqla, Reyestrə daxil edilmiş məlumatlar açıq informasiyaya aiddir, Ədliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir və daim yenilənir.

4.2. Reyestrdən məlumatın kağız daşıyıcıda əldə edilməsi ilə bağlı informasiya sorğuları "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun icra olunur.